# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 17

Bakı şəhəri "5" fevral 2018

**"Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2016-cı il 11 fevral tarixli 2 nömrəli Əmrində dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 4.1-ci bəndini və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**Əmr edirəm:**

1. "Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2016-cı il 11 fevral tarixli 2 nömrəli Əmrinin 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurası üzvlərinin sayı 7 nəfərdən ibarət aşağıdakı tərkibdə təsdiq edilsin:

**Apellyasiya Şurasının sədri**

Samir Vəliyev - Azərbaycan Respublikası energetika nazirinin müavini

**Apellyasiya Şurasının üzvləri:**

Zaur Məmmədov - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının rəhbəri;

Elxan Həşimov - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Neft və qaz siyasəti şöbəsinin müdiri;

| | |
|---|---|
| Amil Mürsəliyev | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Energetika şöbəsinin müdiri; |
| İbrahim Ağayev | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Hüquq şöbəsinin müdiri; |
| Pərvin Bayramova | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının İqtisadiyyat şöbəsinin müdir müavini; |
| Elxan Kərimov | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Daxili nəzarət şöbəsinin İnzibati-təşkilati sektorunun müdiri." |

2. Ümumi şöbə bu əmrin surətini Apellyasiya Şurasının üzvlərinə çatdırılmasını təmin etsin.

3. İctimaiyyətlə əlaqələr və informasiya texnologiyaları şöbəsi bu əmrin nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**